# Təsviri sənət fənninin digər fənlərlə əlaqəli tədrisinin xüsusiyyətləri

*Məqalədə ibtidai siniflərdə təsviri sənətin digər fənlərlə (təbiətşünaslıq və riyaziyyatla) əlaqəli tədrisinin spesifik xüsusiyyətləri araşdırılır.*

*Təcrübə göstərir ki, problem baxımından spesifik xüsusiyyətləri nəzərə almadan tədris prosesində məqsədə nail olmaq çox çətindir. I - IV siniflərdə təsviri sənətin digər fənlərlə (təbiətşünaslıq və riyaziyyatla) əlaqəli tədrisinin spesifik xüsusiyyətləri vardır.*

Bunları nəzərə almadan tədris prosesində məqsədə müvəffəqiyyətlə nail olmaq çox çətindir. Müasir həyat (kino, müxtəlif xarakterli televiziya verilişləri, cürbəcür məzmunlu sərgilər və s.) və onlardan gələn gündəlik informasiyalar axını, ayrı-ayrı məşğələlərdəki yeniliklər və s. şagirdlərin sürətli inkişafına təkan verir.

Onlar gördükləri, eşitdikləri, təmasda olduqları əşya və hadisələr haqqında düşünür, baş verənlərin səbəb və nəticə əlaqələrini öyrənməyə çalışırlar. Təcrübə göstərir ki, kiçik yaşlı məktəblilərin maraq dairəsi geniş və həm də iradi keyfiyyətlərinin davamsızlığı ucbatından çox da dəyişkəndir. Təəssüf hissi ilə qeyd olunmalıdır ki, indiyədək təsviri sənətin tədrisi nöqteyi-nəzərdən şagirdlərin idrakının potensial imkanları lazımınca öyrənilməmişdir. Şagirdlərə təsviri sənət, onun digər fənlərlə tədrisi prosesində nələri hansı şəkildə təqdim etmək müəyyənləşdirilməlidir. Ona görə də təlimin məzmununda bir qayda olaraq boşluqlar özünü göstərməkdədir. Bunlar tədrisin keyfiyyətinə öz mənfi təsirini göstərir.

Təsviri sənət məşğələlərində bilavasitə yaradıcı fəaliyyət prosesi olduğundan bunu şagirdlərin psixoloji inkişafından təcrid edilmiş şəkildə düşünmək ciddi səhv olardı. Bu məşğələlərdə müəllimin başlıca məqsədlərindən biri ilk növbədə şagirdlərdə görüləcək işin məzmunu haqqında düzgün təsəvvür yaratmaqdan, duyğu və qavrayış proseslərini məhsuldar təşkil etməkdən, nəhayət görülən işə emosional maraq oyatmaqdan ibarətdir.

Şagirdləri təsviri sənət məşğələlərinə hazırlayarkən orada aparılacaq işin (məzmunun, məzmunu şagirdlərə ötürməyə xidmət edən vasitə və metodların, priyomların seçilməsini) elmi aspektdən təşkilinə xüsusi diqqət yetirilməlidir. Bu təkcə təsviri sənətin deyil, eyni zamanda onunla əlaqədə olan digər fənlərin də dərindən mənimsənilməsini təmin edir. Şagirdlərin idrak fəaliyyətini yüksəldir.

Təlimdə öyrədici xarakterə malik olan ekskursiya və müşahidələr təsviri sənət məşğələləri üçün daha böyük əhəmiyyət kəsb edir. D.N.Kardovski yazır ki, cisimlərin formasını görmək şagird üçün, xüsusilə kiçikyaşlı məktəblilər üçün asan iş deyil. Bunun üçün ilk növbədə onların təfəkkürünə, hisslərinə təsir edən tərbiyəvi işləri aparmaq lazımdır. Belə hazırlıq işlərini aparmaq üçün ən yaxşı vasitə müşahidədir.

Müşahidə bizi əhatə edən mühitin hadisə və əşyalarını olduğu kimi real qavramağa imkan verir. Lakin yadda saxlamaq lazımdır ki, hər cür müşahidə təlim üçün faydalı ola bilməz. Müşahidəni səmərəli təşkil etmək üçün ilk növbədə uşağı düzgün müşahidəyə alışdırmaq və onun ruhunu dolğun, dürüst və parlaq obrazlarla zənginləşdirmək lazımdır. Belə olduqda şagirdlər cisimlərin xarakterik və tipik əlamətlərini, forma və rənglərini dərk edir, onu təsvir etməyi öyrənirlər.

Müşahidə passiv iş deyil. Bunun üçün şagirdlərə müəyyən təsirlər göstərilməlidir. Belə ki, müşahidə olunan əşyaya, hadisəyə aydın plan, ardıcıl istiqamətverici suallar verilməlidir. Məsələn:

1) müşahidə edilən obyektin və ya hadisənin məzmun, quruluş, forma və rəng xüsusiyyətlərini aydınlaşdırmaq;

2) əsas cəhətləri, müşahidə olunanları seçib yadda saxlamaq;

3) perspektiv qanunlar haqqında məlumat vermək.

Müşahidələrin nəticələri müşahidə gündəliyində qeyd olunmalıdır.

Şagirdlər məktəbə gəldikləri ilk vaxtlar (xüsusilə I sinifdə) təsviri sənət üzrə işlər təsviri xarakter daşıyır. Müəyyən vərdişlərə yiyələndikdən sonra naxış çəkmək üzrə iş getməli və tədricən mürəkkəbləşdirilməlidir.

I sinifdə naxış işləri paralel xətlər, dairə və kvadrat daxilində şaquli, üfiqi və maili xətlər və onların köməyi ilə həndəsi fiqurlar çəkməklə yerinə yetirilməlidir.

Dekorativ rəsmdə iki cür naxış göstərilir:

1. Bitki, heyvan, quş formalarından qurulmuş naxışlar;

2. Həndəsi fiqurlardan qurulmuş naxışlar.

Təsviri sənətin mənimsənilməsi keyfiyyətini yüksəltmək üçün mütləq onun əlaqədə olduğu elm sahələrini (təbiətşünaslıq və riyaziyyatın) tədrisinə diqqət artırılmalıdır. Məlumdur

ki, hər bir tədris fəaliyyətinin məqsədi şagirdin elmi dünyagörüşünü formalaşdırmaqdan, mənəvi aləmini zənginləşdirməkdən, başqa sözlə, onu gələcək həyata hazırlamaqdan ibarətdir. Hələ vaxtı ilə L.V.Zankov ibtidai siniflərdə şagirdlərə həyatı dar bir çərçivədə göstərməyin əleyhinə çıxmışdır.

Araşdırmalar göstərir ki, təsviri sənətin digər fənlərlə əlaqəli tədrisində aşağıdakı məsələlərə əsaslanmalıdır:

1. Tədris materiallarındakı qarşılıqlı əlaqəni nəzərə almaq.
2. Məzmunu həyatla, real varlıqla əlaqələndirmə.
3. Yeni biliklərin köhnə biliklər zəminində öyrədilməsi.
4. Qazanılan biliklərin təcrübəyə tətbiqi.
5. Şagirdlərə bilikləri ümumiləşdirmə bacarığının aşılanması.
6. Şagirdlərin gələcəkdə sistematik kursu mənimsəməyə hazırlanması.

Bu məsələlərin təlimdə nəzərə alınaraq həyata keçirilməsi şagirdlərin şüurlu mənimsəmə imkanlarını artırır, aldıqları bilikləri təcrübədə tətbiq etməyə imkan verir.

Təsviri sənətin təbiətşünaslıq və riyaziyyatla əlaqəli tədrisi hər şeydən əvvəl hər üç fənnin məzmununun zənginləşdirilməsi ilə nəticələnir. Şagirdləri dərin elmi biliklər almaq vəzifəsi ilə qarşılaşdırır. Gərgin təfəkkür əməyinə, durmadan axtarışlara təhrik edir. Bu onu göstərir ki, təfəkkür metodlarından istifadə məsələsini müəllim ön plana çəkməli, hər bir mövzunun mahiyyətindən doğan xüsusiyyətləri müəllim əvvəlcədən götür-qoy etməlidir.

Təsviri sənətin təbiətşünaslıqla əlaqəsi daha geniş və effektlidir. Şagirdlərin zövqü, emosiyası, təfəkkürü əsasən təbiət materialları, onların müşahidələri zəminində formalaşır. Yuxarıda qeyd olunduğu kimi, şagirdlərin təbiətə ekskursiyalarına, müşahidələrinə və onların təşkili zamanı toplanan faktların ümumiləşdirilməsinə xüsusi həssaslıqla yanaşılmalıdır. Təbiət yoxsa, biliklər də, onların yaratdığı sistem də yoxdur. İnsanın özü də mövcud deyil. Deməli, hər şey təbiətdədir, onun mahiyyətindədir. Lakin onun öyrənilməsi insanın səlahiyyətindədir. Biz bu səlahiyyətdən istifadə edərək bütün təbiətə, təbiət hadisələrinə, fəsil dəyişmələrinə istədiyimiz mövqedən, istədiyimiz kimi lupa qoya bilərik. Məqsədimizdən asılı olaraq hər lupada, hər eynəkdə min rəng, min çalar duya bilərik. Təsviri sənətin öyrədilməsində məqsəd həmin rənglərin əlvanlığına, çalarların cizgilərini şagirdlərə göstərməkdir, başa salmaqdır.

III sinifdə təbiətşünaslıq dərsində "Vəhşi heyvanlar" mövzusunun tədrisindən sonra şagirdlər "Zooparka" ekskursiyaya getdilər. Burada şagirdlərin diqqəti heyvanların xarici görünüşünə yönəldildi. Heyvanların bir-birinə münasibətindən söhbət açıldı. İşçilərdən birinin söhbəti təşkil edildi.

Növbəti təsviri sənət dərsi ekskursiyada gördüklərinin şagirdlərin yadına salınması ilə başladı. Dərs maraqlı keçsin deyə mövzu iki istiqamətdə - həm rəsm, həm də yapma formasında işlədildi. Sinifdəki 22 şagird özlərinin arzusuna görə iki qrupa bölündülər. Şagirdlərdən 11-i mövzunu rəsm, qalan 11-i isə yapma formasında yerinə yetirdi.

Hər iki qrupun şagirdlərinə texniki priyomlardan istifadə ilə bağlı məsləhətlər verildi. Müvafiq rənglərin seçilməsi izah olundu. Onlara bildirildi ki, fiqurlar hazırlayacaq şagirdlərin plastilindən istifadə etmələri məsləhətdir. Bu, rəngin düzgün istifadə olunmasına kömək göstərir. Plastilindən fiqurlar hazırlanması ilə bağlı texniki priyomlar (kəsmə, yapışdırma, dartma, uzanma və s.), qaydalar (fiqurların və eyni fiqurun müxtəlif hissələrinin bir-birinə nisbəti, fiqurla əlaqəsi, fiqurun ətraf mühitdə mövqeyi və s.) şagirdlərə izah olundu. Bəziləri praktik şəkildə göstərildi. Dərsdə əyaniliyə geniş yer verildi. Heyvanxana ilə bağlı şəkillər, fiqurlar, diafilmlər nümayiş etdirildi. Oxu dərsliyindən "Heyvanxanada" mətni əlavə oxutduruldu. Lakin şagirdlərin praktik iş zamanı həmin əyani vəsaitlərin onların gözləri qarşısında qalması məsləhət deyildir (əyani vəsaitin praktik fəaliyyət zamanı sinfə belə təqdim edilməsi yaradıcı işləməyin qarşısını alır, müstəqilliyə mane olur, fantaziya qabiliyyətinin imkanlarını ləngidir, diqqəti, yaddasaxlamanı zəiflədir). Şagirdlər əvvəlcədən təsvir edəcəkləri obyektin dərs prosesində bütünlüklə gözləri qarşısında qalacağını bildiklərindən ona biganə münasibət bəsləyirlər. Bu isə təsviri sənət dərslərinin üzündən köçürməyə çevrilməsinə gətirib çıxarır.

Obyekt şagirdlərin praktik fəaliyyəti tamamilə qurtardıqdan sonra yenidən nümayiş etdirildi. Bu müqayisəyə imkan açdı. Əyani vəsaitin iki aparıcı vəzifəsinin (əvvəllər gördüklərini, öyrəndiklərini şagirdlərin yadına salmaq, təsəvvürlərində canlandırmaq və çəkdikləri rəsmləri, hazırladıqları fiqurları əyani vəsaitdə təsvir olunanlarla müqayisə) yerinə yetirilməsinə təsir göstərdi. Nəzərə alınmalıdır ki, bunların hər ikisinin həm praktik işdən əvvəl, həm də sonra nümayiş etdirilməsi faydalıdır. Birinci nümayiş nəyi və necə çəkməyi aydınlaşdırır, ikincisi isə həmin təsvirdəki nöqsanları aradan qaldırmağı şagirdlərə öyrədir.

Fənlərarası əlaqə prosesində şagirdlərə fəal yanaşmaq, yeri gəldikcə onlara kömək göstərmək vacibdir. Uşaqların bir-birlərinin çəkdiyi rəsmlərə, hazırladıqları fiqurlara baxmalarına, onları təhlil-tərkib etmələrinə icazə verilir. Təsviri sənətin təbiətşünaslıq və riyaziyyatla əlaqəli tədrisində tətbiq olunan priyomlar dərsdə formalizmdən qaçmağa əlverişli şərait yaradır, şagirdlərin gözləri qarşısında təlimin, konkret bir dərsin perspektivlərini canlandırır. Onlar gündəlik fəaliyyətlərində qarşılaşacaqları ehtimal olunan suallar, çalışmalar üzərində fikirləşirlər. Bu təsviri sənət əsərlərinin ümumtəhsil vəzifələrinin yerinə yetirilməsinə, onun



hərtərəfli inkişaf etmiş adamların tərbiyəsində əsas vasitələrdən biri olmasına kömək göstərir.

İbtidai sinif şagirdlərinin psixoloji və fizioloji xüsusiyyətləri nəzərə alınmaqla tətbiq olunan priyomlar təsviri sənətlə təbiətşünaslıq, riyaziyyat fənlərinin əlaqəli tədrisi ilə bağlı texniki qaydaların, elmi mülahizələrin daha mükəmməl mənimsənilməsinə təsir göstərir. İşin belə təşkili şagirdlərin özlərini "həqiqi rəssam", "heykəltaraş", "dekorator", "təbiətşünas", "riyaziyyatçı" kimi hiss etmələrinə şərait yaradır. Lakin təcrübəyə əsaslansaq, deyə bilərik ki, şagirdlərin həqiqi yaradıcılıq mühitinə salınmaları onlarda lovğalığın baş qaldırmasına gətirib çıxara bilər. Çəkdikləri rəsmlər, hazırladıqları fiqurlar onlarda yüksək fikir oyadır. Müəllim çalışmalıdır ki, şagirdlərə hər bir dərsdə yol verdikləri nöqsanları başa salsın. Yersiz təşəbbüsün zərərli nəticələrinə qarşı ehtiyatlı olsun.

Araşdırmalar göstərir ki, nöqsanları aradan qaldırmaq üçün müxtəlif priyomlardan istifadə emək olar. Əl işlərindən ibarət sərgilərin təşkili şagirdlərə daha effketli təsir göstərir. Lakin sərgilər elə təşkil olunmalıdır ki, şagirdlər tamaşaçı kimi qalmasınlar. Onlar üçün müəllim suallar verməlidir: "Sərgidə hansı əsər xoşunuza gəldi?", "Nə üçün?", "Bəs hansılar xoşunuza gəlmədi?", "Nə üçün?", "Rənglərdən necə istifadə olunub?", "Əsərdə hansı qüsurlara yol verilib?", "Əsərdə təbiət təsvirləri necədi?", "Əsərdə mütənasiblik gözlənilibmi?". Belə suallar şagirdləri seyrçilikdən uzaqlaşdırır, onları düşünməyə vadar edir. Təsviri sənətin digər fənlərlə əlaqəli tədrisində diqqəti cəlb edən cəhətlərdən biri də praktik tapşırıqlarla nəzəri məlumatların mənimsənilməsi arasındakı fərqdir. Şagirdlər nəzəri məlumatlar alsalar da, çox zaman onları praktik çalışmalara tətbiq etməyi bacarmırlar. Bunun başlıca səbəbi müəllimlərin nəyi, necə öyrətməsindəki səviyyəsinin azlığı ilə bağlıdır. İkinci səbəbi nəzəriyyənin praktikaya əsaslanmadan öyrədilməsi ilə əlaqədardır. Ona görə də nəzəriyyə ilə praktika qarşılıqlı əlaqədə şagirdlərə mənimsədilməlidir.

Təcrübə göstərir ki, ibtidai siniflərdə təsviri sənətin təlimi o zaman istənilən nəticəni verir ki, onun təşkilinin səciyyəvi xüsusiyyətləri nəzərə alınsın. Eksperimental tədqiqatların nəticələrinə əsaslanaraq deyə bilərik ki, təsviri sənətin təbiətşünaslıq və riyaziyyatla əlaqəli tədrisində aşağıda qeyd olunan xüsusiyyətlərə mütləq diqqət yetirilsin:

1. Fənlərarası əlaqənin əyanilik tələb etməsi.

Tədris olunan materialın məzmununun əyaniləşdirilməsi təlimin keyfiyyətinin yüksəldilməsinin mühüm vasitələrindən olduğu dönə-dönə pedaqoji və psixoloji ədəbiyyatda şərh olunmuşdur. Heç də təsadüfi deyildir ki, böyük pedaqoq Y.O.Komenski əyaniliyi qızıl qayda adlandırmışdır. O, yazırdı: "Mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək qoy müəllimlər üçün qızıl qayda olsun, yəni görünəni görmə duyğusuna, səsi eşitmə duyğusuna, iyi iybilmə duyğusuna, dadı olanı dad duyğusuna, toxunula biləni lamisə duyğusuna təqdim etməli. Əgər bir şeyi birdənbirə bir neçə duyğu ilə qavramaq mümkündürsə, qoy eyni zamanda bir neçə duyğu ilə qavranılsın" (4, s. 86). K.D.Uşinski də əyaniliyin böyük əhəmiyyətindən bəhs edərək yazırdı: "Uşağın təbiəti aydın bir surətdə əyanilik tələb edir. Uşağa ona məlum olmayan beş kəlmə söz öyrətməyə çalışın, o bunların üzərində uzun müddət və əbəs yerə əzab çəkəcəkdir. Lakin bu cür iyirmi kəlməni şəkillərlə əlaqələndirsəniz, uşaq bunları çox asanlıqla mənimsəyəcəkdir. Siz uşağa sadə bir fikir izah edirsiniz, o sizi anlamır, həmin uşağa mürəkkəb şəkil izah edin, o sizi çox tez anlayar" (5, s.69). Ona görə də dərsin effektliyini yüksəltmək üçün müəllim mümkün qədər tədris materiallarının məzmununu əyaniləşdirməlidir. Məsələn, təbiətşünaslıq dərsində sinfə mətnin məzmunu ilə əlaqədar əşyaların, cisimlərin özlərini, şəkillərini, müqəvvalarını, müəyyən hissələrini gətirməlidir. Şagirdlərin belə əşyalar üzərində müsahibəsi təşkil olunmalı, əşyaların xarakterik xüsusiyyətləri digərlərindən ayrılmalıdır.

2. Təsviri sənətin təbiətşünaslıq və riyaziyyatla əlaqəli tədrisində fakt və anlayışların (terminlərin) çoxluğu.

Buraya üç fənlə əlaqədar terminlər, anlayışlar toplanır. Şagirdlər fənlərarası əlaqə prosesində uyğun anlayışlardan istifadə etməli olurlar. Təcrübə göstərir ki, kiçikyaşlı məktəblilər belə anlayışların hamısını çox zaman yaddaşda saxlaya bilmirlər. Ona görə də yaxşı olar ki, belə anlayışların, terminlərin mənasını müəllim əşyaların özlərinin, yaxud da şəkillərinin köməyi ilə açsın.

3. Təfəkkürün induktiv metoduna müraciət olunması.
4. Təfəkkürün deduktiv metoduna müraciət olunması.
5. Məzmunun öyrənilməsində müstəqilliyin təmin olunması.
6. Ümumiləşdirmə bacarığının formalaşdırılması.

***Fərahim ZEYNALOV,***
*pedaqoji elmlər namizədi*

Ədəbiyyat

**1. Abbasov A., Əlizadə H. Pedaqogika, Bakı, Renessans, 2000.**
**2. Kərimov Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası, Bakı, Maarif, 1997.**
**3. Qaralov Z.İ. Fizikanın tədrisində fəndaxili və fənlərarası əlaqə. ADETPEİ-nin elmi əsərləri, IV buraxılış, Bakı, 1996.**
**4. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası, Bakı, Mütərcim, 1997.**
**5. Ушинский К.Д. Собрание сочинений, том 6, Москва, "Просвещение", 1949.**



Körpəm

# "KÖRPƏM"LƏ ƏLAQƏ SAXLAYIN !

**Bu günlərdə uşaqlarımız üçün daha bir mətbuat orqanı işıq üzü görəcək. F.Köçərli adına Dövlət Uşaq Kitabxanasının təsisçiliyi ilə ayda bir dəfə buraxılacaq jurnalın baş redaktoru Arzu Həsənovadır.**

**32 səhifədən ibarət "Körpəm" jurnalı rəngli və illüstrasiyalı olacaq. Uşaqların yaradıcılığına, istedadların aşkar edilməsi və digər məsələlərə geniş yer ayıracaq.**

***Ünvan: Az 1022, Bakı, Səməd Vurğun küç.104.***

***Əlaqə telefonu: 495-39-26.***

***Totalitar rejim dövründə təbii ki, türk xalqlarının yaxınlığı, qohumluğu mövzusunu bədii formalarda işıqlandırmaq qeyri-mümkün idi. Yalnız son dövrdə, 10-15 il bundan əvvəl belə bir imkan yaranmışdır.***

***Son illərdə azərbaycanlıların həyatında aktual olmuş, qəlbləri həyəcanlandıran bir mövzu da yaranmışdır ki, o da Azərbaycanın ən yeni tarixində baş verən məlum hadisələrlə bağlıdır. Bu, Azərbaycan torpaqlarının işğalı, Xocalı faciəsi, Qarabağ uğrunda Azərbaycan oğullarının şəhid olmasıdır.***

Qarabağ hadisələrinə münasibət, onların şərhi, təfsiri bir çox Azərbaycan bəstəkarlarının əsərlərində öz əksini tapmışdır. Onlardan Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi", "Çəkin, Qarabağdan qara əlləri", Sevda İbrahimovanın "Sənin üçün darıxıram, Şuşam", "Vətən düşüncələri" Elnarə Dadaşovanın "Xocalı laylası", "Xoral" əsərləri qeyd oluna bilər. Bu mövzunun bir aspekti də ümumiyyətlə, faciəvi-qəhrəmani obrazlarla bağlıdır. Belə əsərlərdən Cəlal Abbasovun "Lamentation for Gultegin", Cavanşir Quliyevin "Zurna və simfonik orkestr üçün Uvertüra" kimi əsərləri göstərə bilərik.

Qeyd etmək lazımdır ki, Azəbraycan bəstəkarları dəfələrlə faciəvi mövzulara müraciət etmişlər. Lakin adı çəkilən əsərlərdə baş verən faciəvi hadisələrin dərk olunması nəticəsində yeni obrazlılıq formalaşmışdır ki, bu da tamamilə yeni, dəyişilmiş tarixi-mədəni kontekstlə şərtlənmişdir. Burada Azərbaycan bəstəkarlarının əsərlərində Qarabağ mövzusunun təcəssümü əsasında yeni musiqi konsepsiyasının yaradılması xüsusilə diqqəti cəlb edir. Məzmun-quruluş paralellərinin xüsusiyyətləri, vizual və musiqi baxımından qarşılıqlı əlaqələr burada faciəvi obrazların yaranmasında böyük rol oynayır.

Doğrudur, bu mövzunun tədqiqi ilə bağlı bir çox problemlər qarşıya çıxır. Məsələn, Azərbaycan musiqisində obrazlar sisteminin təşəkkülünə retrospektiv axış, onun qaynaqları və əsas tərkib hissələri, musiqidən kənar aləmin Azərbaycan musiqisinin obrazlar sisteminin ümumi əlamətləri və onun fərdi surətdə təfsiri, şərhi və s.

Biz yalnız Qarabağ faciəsilə qırılmaz surətdə bağlı olan obrazlar sisteminin formalaşmasına həsr olunmuş məsələlərin çox kiçik bir hissəsini nəzərdən keçirməyə çalışırıq.

Hər şeydən əvvəl qeyd etməliyik ki, faciəvi mövzu çərçivəsində obrazlar həm psixoloji dərinliyə, həm də ümumiləşdirməyə malikdir. Onu da deyək ki, çox zaman bəstəkarlar motiv-xarakteristika prinsipinə müraciət edərək, onu fəal surətdə işləyirlər. Beləliklə də obrazın nüanslaşdırılmasına, çoxcəhətli açıqlanmasına və inkişafına nail olurlar. Bir qayda olaraq, müvafiq ifadəli cizgilərə malik olan elementlər qrupu seçilir.

İnsanların faciəsini dərinliyə kimi ifadə etmək üçün zəruri musiqi ifadə vasitələri özünü biruzə verir. Bu vasitələr fəal hərəkətli, təsirli olub, müasir dinləyicinin diqqətini cəlb etməyə, Azərbaycan xalqının yaşadığı və yaşamaqda davam etdiyi dramanı dinləyiciyə çatdırmağa qadirdir.

Nümunə kimi, görkəmli bəstəkar Vasif Adıgözəlovun



# Azərbaycan bəstəkarlarının Qarabağ mövzusuna həsr olunmuş əsərlərində obrazlar sisteminin təşəkkülü

*XX əsrin sonu, XXI əsrin əvvəllərində Azərbaycan professional musiqisində bizim həyatımıza qəfil daxil olmuş tarixi ictimai, mədəni hadisələrlə bağlı bir sıra əsərlər meydana gəlmişdir. Bütün bunlar Azərbaycan musiqisində yeni obrazlar sistemi yaratmışdır. Belə ki, musiqidə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin surətinin təcəssümü bu baxımdan mühüm əhəmiyyət kəsb etmişdir. Son illərdə obrazlar sisteminin formalaşmasına təsir göstərən yeni təmayüllərdən biri də bizim türk soy kökümüzün dərk olunması ilə bağlıdır.*

"Çəkin Qarabağdan qara əlləri" vokal-instrumental kompozisiyasına müraciət edək. Nəbi Xəzrinin sözləri əsasında bəstələnmiş bu əsər ideya məzmunun masştablığı, monumentallığı ilə fərqlənir. Simfonik orkestrin geniş tərkibi üçün nəzərdə tutulmuş kompozisiyada vokal partiya solo və xor fraqmentlərinin növbələşməsinə əsaslanır. Belə bir struktur poetik mənin quruluşu ilə bağlı olub, ikihissəli kuplet formasını əmələ gətirir.

Əsərin təmkinli məğrur mövzusu dərin kədərlə, hüznlə doludur. Bununla yanaşı, burada şər və qəddarlığa qarşı, müharibənin dağıdıcı qüvvəsinə qarşı daxili bir etiraz səslənir. Bu, öz Vətəninin taleyinə görə narahat olan bir insan qəlbinin həyəcanları və iztirabları haqqında mahnıdır.

Qeyd etmək lazımdır ki, faciəvi mövzu bu əsərdə qəhrəmani mübarizə aspektində açıqlanır. Xalqa üz vermiş faciə, doğma torpaqların işğalı bəstəkarın qəlbində kədərlə yanaşı, etiraz hissləri doğurur və buradan da mübarizəyə çağırış sədaları yaranır. Bütun bu dialektik proses bəstəkarın təfəkküründə musiqi obrazlarına çevrilərək, faciəvi-qəhrəmani rakursda həllini tapır.

Bu cür obrazların təcəssümü üçün bəstəkar tipik musiqi ifadə vasitələrindən istifadə etmişdir. Marş ritmi, dəqiq konturlara malik forma, mübarizəyə çağırış ruhlu melodik və s. bu kimi nəzərə çarpan və qəhrəmani məzmunlu əsərlərdə istifadə olunan ifadə vasitələri ilə yanaşı, melodiyanın intonasiya özəyi onun hərəkət formaları və quruluşu da obrazın açılmasında mühüm rol oynayır. Bu baxımdan, melodik xətin eyni masştablı frazalara bölünməsi və onların təkrarlanması ilə ciddi periodik quruluşun yaranması diqqətə layiqdir. Eyni zamanda, intonasiya özəyinin variantlı dəyişmələrə məruz qalması formanı sxematiklikdən çıxarır.

Melodiyanın yüksələn xətlə inkişafı səciyyəvi çağırış tonunu əmələ gətirən ifadə vasitəsi kimi qeyd olunmalıdır. Melodiyanın intonasiya özəyində artıq bu inkişafın əsasının qoyulduğunu görürük. Belə ki, melotonikanın oxunmasında bu, öz təcəssümünü tapır: kiçik bir interval çərçivəsində yüksəliş, gərginlik mərkəzi, enmə və yenidən yüksəlmə bir melodik formul kimi, dinamik məqsədyönlü irəliləyiş üçün təkanverici əhəmiyyət kəsb edir. Bununla da əsərdə məzmun və formanın vəhdət, dramaturji inkişaf xətti məqsədyönlü olaraq, intonasiya özəyinin hərəkət formaları vasitəsilə açılır. İntonasiya inkişafının ən kiçik detallarının araşdırılması Azərbaycan musiqisində faciəvi-qəhrəmani obrazlar sistemində səciyyəvi ifadə vasitələrinin üzə çıxarılmasına yol açır.

Elnara Dadaşovanın orqan üçün "Xocalı laylası" və "Xoral" (Xocalının xatirəsinə) əsərləri də diqqətəlayiqdir. Hər iki əsər Xocalıda baş vermiş faciəli hadisələrə həsr olunmuşdur. Bu əsərlər miniatür quruluşludur.

"Xocalı laylası" işıqlı, sakit kədər əhval-ruhiyyəsi ilə aşılanmışdır. Bu musiqinin emosional atmosferi kölgə işıq keçidlərinin zərif çalarları güclə seziləcək əhval-ruhiyyə dəyişiklikləri ilə zəngindir. Pyesin incə obrazı ekspressiv rənglərə boyanmışdır. İfadəli səs çalarları ilə zəngin musiqi palitrasında dinamik səslənmənin yüksəlməsi və sönməsi, melodiyanın tembr rəngarəngliyi, onun laylaya xas olan, "yırğalanan" fiqursiyalara bölünməsi öz əksini tapır. Mövzu sanki harmonik səslərin içində gizlənir, onların faktura fonuna qarışır. Öz təbiətinə görə mövzu vokal xarakterlidir. İntonasiya xəttinin geniş axıcılığı, elastikliyi və tamlığı hər bir ayrıca ifadənin əhəmiyyəti əsl "oxuma" effekti yaradır.

Melodik dönümlərin fərdi məzmunu, onların təkrarlanmaz üslub cizgiləri milli ladlara əsaslanması ilə müəyyən olunur. Belə ki, Laylada lad-intonasiya hərəkəti mi segah ladının təsirli tonlarda köklənmişdir. Bu zaman adı çəkilən lad pyesdə xromatizmlərlə zənginləşmiş şəkildə özünü göstərir. Nəticədə səslənmənin zərifliyi, fakturanın naxışlı toxunmalarında milli xüsusiyyətlər özünü aydın biruzə verir.

Laylanın strukturunun əsas xüsusiyyəti onunla əlaqədardır ki, burada musiqinin improvizasiyalı axınında periodiklik, kvadratlıq əlamətləri hökm sürür. Formanın klassik mütənasibliyi miniatür sadə ikihissəli formada təcəssüm olunmuşdur ki, onun da hər hissəsi period formasındadır. Belə bir formanın kökləri də xalq musiqisi ilə sıx bağlıdır.

Laylanın intonasiya xətti olduqca ifadəli olub, bir səsdən digərinə sərbəst surətdə keçir, ayrı-ayrı daxilən tamamlanmış musiqi frazalarına bölünür. Nəticədə melodiya ümumilikdə kifayət qədər geniş diapozonu əhatə edərək, orta səs registrində cəmləşir. Danışıq və mahnı intonasiyalarının mürəkkəb qarşılıqlı toxunmasında laylanın ifadəli boyalarla zəngin, detallaşdırılmış mövzusu yaranır. Ritmin dəqiqliyi quruluşunun periodikliyi sərbəst melodiya axını sayəsində bir qədər yumşaq cizgilər kəsb edir.

***Nəzərdən keçirdiyimiz "Xocalı laylası" pyesinin intonasiya inkişafının əsas prinsipləri kimi sekvensiyalı hərəkəti, melotonikanın ikitərəfli oxunmasını, intonasiyaların transformasiyasını, variantlı dəyişmələri göstərə bilərik; o cümlədən, melodikada pillələr ərafında oxunmalar və sekvensiyavari gedişlər müxtəlif variantlarda öz əksini tapır.***

***E. Dadaşovanın Xocalının xatirəsinə ithaf etdiyi "Xoral" bəstəkarın Xocalıda baş vermiş faciəyə münasibətini, yüksək etik duyğularını əks etdirən bir əsərdir. Bu, gündəlik***